# Yeni yol vacib logistik mərkəz rolunu oynayır

## Zəngilan körpüsünün inşası ölkəmizə siyasi-iqtisadi dividendlər qazandıracaq

**Oktyabrın 6-da Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru yolun üstündə Zəngilan körpüsünün inşasına başlanılıb.**

Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında bu yeni avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturu "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində reallaşdırılır.

Zəngilan körpüsünün açılması Azərbaycan, eləcə də digər region dövlətlər üçün ciddi siyasi və iqtisadi əhəmiyyətə malikdir. Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Vahid Əhmədov deyib ki, bu yol ölkəmiz üçün iqtisadi və siyasi əhəmiyyət kəsb etməklə yanaşı, həm də Türkiyə vasitəsilə Avropaya çıxan, Şərqlə Qərbi birləşdirən yol kimi mühüm rola malikdir. "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru yolun bərpasını təmin edir. Bu, bizim üçün çoxdan arzu etdiyimiz layihə idi.



"Ümumiyyətlə, bu yol bir çox dövlət, o cümlədən Rusiya və İran, həmçinin Şərq dövlətləri və Avropa üçün böyük əhəmiyyət kəsb edir. Zəngilan körpüsünün inşasında hətta Çinin də böyük marağı var. Nəzərə almaq lazımdır ki, yeni yol vacib logistik mərkəz rolunu oynayır", - deyə deputat qeyd edib.

Vahid Əhmədovun sözlərinə görə, logistik mərkəzlərə malik olan dövlətlər həmişə ondan kifayət qədər böyük gəlir götürürlər. Bu yol həm dəmiryolu, həm də avtomobil yolu olduğu üçün Azərbaycanın da layihə vasitəsilə kifayət qədər gəlir əldə edəcəyi gözlənilir. Zəngilan körpüsünün fəaliyyətə başlaması ilə Azərbaycan iqtisadiyyatına ciddi təsir edən yükdaşımalarının həcmi artacaq ki, bu da əlavə gəlirlərin yaranması üçün şərait yaradacaq.

Deputat onu da əlavə edib ki, Zəngilan körpüsü Naxçıvanın iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir: "Uzun illərdir blokada şəraitində olan Naxçıvana birbaşa yolun çəkilməsi bu regionun sosial-iqtisadi inkişafında, əhalisinin yaşayış səviyyəsinin yaxşılaşmasında və gəlirlərinin artmasında böyük rol oynayacaq. Bu da birbaşa Azərbaycan iqtisadiyyatına öz müsbət təsirini göstərəcək. Yəni Zəngilan körpüsünün inşası ölkəmiz üçün həm iqtisadi, həm də siyasi cəhətdən çox vacibdir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 14 oktyabr.- S.4.